# Zəfər Gününə həsr olunan "Heydər Əliyev və Azərbaycan tarixi" VII Ümumrespublika bilik yarışı başlayır

Heydər Əliyev Mərkəzində keçiriləcək növbəti bilik yarışına hazırlıqlar başlayıb. "Heydər Əliyev və Azərbaycan tarixi" VII Ümumrespublika bilik yarışında iştirak edən 40-dan çox ali təhsil müəssisəsinin tələbələrindən ibarət komandalar bu gündən etibarən Heydər Əliyev Muzeyində olaraq Ümummilli Liderin həyat və fəaliyyəti, Azərbaycan tarixinə dair mövzular üzrə araşdırma aparmaqla müsabiqəyə hazırlaşırlar.

AZƏRTAC xəbər verir ki, builki "Heydər Əliyev və Azərbaycan tarixi" Ümumrespublika bilik yarışının əsas mövzusu Vətən müharibəsi və şanlı Zəfər tarixinə həsr olunub. Noyabrın 12-də Heydər Əliyev Mərkəzində təşkil olunacaq yarışın son günündə komandalar arasından 3 qalib seçiləcək.

Qeyd edək ki, ali təhsil müəssisələrinin tələbələri arasında 2014-cü ildən etibarən keçirilən bilik yarışı Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin öyrənilməsi, dahi rəhbərin irsinin yaşadılması ilə yanaşı, gənclərin Azərbaycan tarixinə dair biliklərinin dərinləşdirilməsi, intellektual vərdişlərinin inkişafı məqsədi daşıyır.

Bu günədək keçirilən yarışların qaliblərini bir daha təqdim edirik:

**"Heydər Əliyev və Azərbaycan tarixi" I Ümumrespublika bilik yarışı**

**12 noyabr 2014-cü il**

Iştirakçı: 44 ali məktəbin komandası

Qaliblər:
I yer - Bakı Slavyan Universiteti
II yer - Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyası
III yer - Lənkəran Dövlət Universiteti

❖ ❖ ❖

**"Heydər Əliyev və Azərbaycan tarixi" II Ümumrespublika bilik yarışı**

**10 noyabr 2015-ci il**

İştirakçı: 46 ali məktəbin komandası

Qaliblər:
I yer - Qafqaz Universiteti
II yer - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyası
III yer - Lənkəran Dövlət Universiteti

❖ ❖ ❖

**"Heydər Əliyev və Azərbaycan tarixi" III Ümumrespublika bilik yarışı**

**8 noyabr 2016-cı il**

İştirakçı: 42 ali məktəbin komandası

Qaliblər:
I yer - Azərbaycan Dövlət İqtisad Universiteti
II yer - Azərbaycan Dövlət Sərhəd Xidməti Akademiyası
III yer - Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası

❖ ❖ ❖

**"Heydər Əliyev və Azərbaycan tarixi" IV Ümumrespublika bilik yarışı**

**11 noyabr 2017-ci il**

İştirakçı: 44 ali məktəbin komandası

Qaliblər:
I yer - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyası



II yer - Azərbaycan Dövlət Aqrar Universiteti
III yer - Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası

❖ ❖ ❖

**"Heydər Əliyev və Azərbaycan tarixi" V Ümumrespublika bilik yarışı**

**18 oktyabr 2018-ci il**

İştirakçı: 47 ali məktəbin komandası

Qaliblər:
I yer - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyası
II yer - Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası
III yer - Daxili İşlər Nazirliyinin Polis Akademiyası

❖ ❖ ❖

**"Heydər Əliyev və Azərbaycan tarixi" VI Ümumrespublika bilik yarışı**

**12 noyabr 2019-cu il**

İştirakçı: 48 ali məktəbin komandası

Qaliblər:
I yer - Daxili İşlər Nazirliyinin Polis Akademiyası
II yer - Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası
III yer - Dövlət Sərhəd Xidməti Akademiyası.